**Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1261 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

| | |
|---|---|
| *Ramin **Quluzadə*** | - Azərbaycan Respublikasının *nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*[1] |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Xələf **Xələfov** | - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Sahil **Babayev** | - Azərbaycan Respublikasının iqtisadiyyat ~~və sənaye~~ nazirinin müavini[2] |
| Sevda **Məmmədəliyeva** | - Azərbaycan Respublikası mədəniyyət ~~və turizm~~ nazirinin müavini |
| *Ceyhun **Bayramov*** | - Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| İsmayıl **İsmayılov** | - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini |
| *Fuad **Nağıyev*** | - *Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*[3] |
| Səfər **Mehdiyev** | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini |
| Vadim **Xubanov** | - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini |
| *İbrahim **Quliyev*** | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| ~~*Elman **Araslı***~~[4] | ~~*- Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri*~~ |

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə İraq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2011-ci il
1514

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
2. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
3. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
4. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
5. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**

6. 3 may 2019-cu il tarixli **1156** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 5 may 2019-cu il, 98 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 877**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları naziri** " sözləri "**rabitə və yüksək texnologiyalar naziri**" sözləri ilə əvəz edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsinin "**Əli Abbasov"** sözləri "**Ramin Quluzadə**" sözləri ilə, "**Elmar Qasımov**" sözləri "**Ceyhun Bayramov**" sözləri ilə və "**Akif Əlizadə"** sözləri "**İbrahim Quliyev**" sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1-ci hissəyə "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,**" sözü əlavə edilmişdir.

[2] 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri **"Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

[3] 3 may 2019-cu il tarixli **1156** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 5 may 2019-cu il, 98 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 877**) ilə 1-ci hissədən "**və turizm**" sözləri çıxarılmışdır və həmin hissəyə "**İsmayıl İsmayılov - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini**" sözlərindən sonra "**Fuad Nağıyev - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri**" sözləri əlavə edilmişdir.

[4] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsindən **"Elman Araslı - Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri**" sözləri çıxarılmışdır.